# MÜSTƏQİL AUDİTORUN HESABATI

**«İqtisadi Tədqiqatlar Mərkəzi» İB**
**Rəhbərliyinə**

## *Maliyyə hesabatları üzrə hesabat*

*Mən, Sərbəst auditor Cəfərov Altay Mürsəl oğlu (lisenziya № 047500, 26.06.2011-cı il tarixli, verilib Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən) «İqtisadi Tədqiqatlar Mərkəzi» İB-nə təqdim olunmuş 09 mart 2012-ci il tarixli məktub-öhdəliyə və bağlanılmış 09 mart 2012-ci il tarixli 12/2012 saylı müqaviləyə əsasən, «İqtisadi Tədqiqatlar Mərkəzi» İB -nin 31 dekabr 2010-cu il tarixinə balans hesabatından və bu tarixə başa çatmış il üzrə mənfəət və zərərlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin axını barədə hesabatlarından, habelə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardım.*

## *Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti*

*Rəhbərlik göstərilən maliyyə hesabatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır.Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.*

## *Auditorun məsuliyyəti*

*Mənim vəzifəm apardığım audit əsasında həmin maliyyə hesabatları üzrə rəy ifadə etməkdir.Mən, auditi beynəlxalq audit standartlarına uyğun aparmışam.Bu standartlar məndən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılması maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.*
*Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir.Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq,maliyyə hesabatlarının əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi auditorun mühakiməsindən asılıdır.Bu risklər qiymətləndirilərkən auditor müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisənin maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsinə aid olan daxili nəzarət elementlərini nəzərə alır, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmür.Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm etimalların qiymətləndirilməsi , o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir.*
*Mən hesab edirəm ki, əldə etdiyim audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.*

## *Rəy*

*Mənim fikrimcə, maliyyə hesabatları 31 dekabr 2010-cu il tarixinə şirkətin maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin axını üzrə Milli Mühasibat Uçotu Standartlarına müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.*

***Sərbəst Auditor:*** ***Cəfərov Altay Mürsəl oğlu***

*10 mart 2012-ci il.*
*Bakı şəhəri, Suraxanı rayonu, Yeni Güneşli Qəsəbəsi, Samir Cəfərov küçəsi, ev 7, mənzil 25.*